

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 6 (23.418)

14 yanvar 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.

## V.Y.Talıbovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə Vasif Yusif oğlu Talıbov "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 yanvar 2020-ci il*

# Naxçıvan inkişafın müasir mərhələsində

## Ordubad rayonunun Vənənd kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir".***

Azərbaycan dövlətinin inkişaf dinamikasını əks etdirən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Dahi şəxsiyyətin yolunun davam etdirilməsi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Muxtar respublikada enerji, ərzaq, müdafiə və informasiya təhlükəsizliyi təmin olunmuşdur. Hər bir sahədə yenilik, tərəqqi müşahidə olunur. Geniş quruculuq işləri aparılır, müasir kənd infrastrukturu yaradılır, insan amilinə yüksək qiymət verilir.

Yanvarın 13-də Ordubad rayonunun Vənənd kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## 2020-ci ildə ilk məktəb binası Vənənddə istifadəyə verilmişdir





Yanvarın 13-də Vənənd kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Ali Məclisin Sədri birinci sinifdə və məktəbəqədər hazırlıq qrupunda tədrisin təşkili ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il birinci sinifdə 25 şagird təhsil alır. Məktəbəqədər hazırlıq qrupunda isə 30 şagird vardır.



Bildirilmişdir ki, 432 şagird yerlik ikimərtəbəli məktəbdə 27 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 kompüter otağı, 3 elektron lövhəli sinif, hərbi kabinə, 2 şahmat sinfi, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı vardır. Kitabxana fondunda 5100-ü dərslik və 4730-u bədii ədəbiyyat olmaqla, 9830 kitab vardır. Kompüter otaqlarında isə 43 kompüter quraşdırılaraq internetə qoşulmuşdur.

Hərbi kabinəyə baxış zamanı qeyd olunmuşdur ki, məktəbdə şagirdlərin hərb sənətinə marağının artırılması diqqətdə saxlanılır. Ötən il 3 şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Elektron lövhəli sinifdə Naxçıvan Dövlət Tarix Muzeyi ilə ümumtəhsil məktəbləri arasında keçilən interaktiv dərs izlənilmişdir.

Müəllimlərdən Şükufə Mirzəyeva, Aynurə Məmmədova, Günel İmamquliyeva və Ətrübə İmanova Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər. Ətrübə İmanova demişdir: "Bu gün Vənənd kəndində bayramdır. Çünki kənd tamamilə yenidən qurulub. Aparılan quruculuq işlərinin nəticəsi kimi kollektivin istifadəsinə müasir məktəb binası verilib. Naxçıvanda elmə, təhsilə böyük qayğı göstərilir. Bütün bunlar ulu öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir".



İdman zalında və şahmat siniflərində də şagirdlərin fiziki və əqli inkişafı üçün lazımi şərait yaradılmışdır.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Məktəbin direktoru Təranə İsmayılova çıxış edərək demişdir ki, muxtar respublikamızda quruculuq işlərinin bütün yaşayış məntəqələrini, xüsusilə kəndləri əhatə etməsi inkişafın ən mühüm amilidir. Vənənd kəndində də kompleks quruculuq və abadlıq işləri aparılmış, ən müasir məktəb binası tikilmişdir. Müasir tədris şəraiti ilə təmin olunmuş məktəb bu gün müəllim və şagirdlərin istifadəsinə verilir. Yeni məktəbdə yaradılan şərait bundan sonra da tədrisin yüksək səviyyədə təşkilinə və nailiyyətlərin artmasına imkan verəcəkdir.

Təranə İsmayılova kollektiv adından minnətdarlıq etmiş, gənc nəslin təlim-tərbiyəsində səylə çalışacaqlarına söz vermişdir.

Ardı 2-ci səhifədə

Məktəbin müəllimi Surə Ağayeva Ali Məclis Sədrinə müraciət edərək demişdir: “1995-ci ildə muxtar respublika rəhbəri seçilərkən təhsil quruculuğunu inkişafın əsas istiqaməti kimi müəyyənləşdirmişdiniz. Ötən dövrdə muxtar respublikamızda təhsil islahatları geniş vüsət almışdır. Şəhər və rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndlərində də yeni məktəb binaları inşa olunub. Artıq Naxçıvan təhsili yeni inkişaf dövrünü yaşayır. Yaratdığınız şəraitin nəticəsidir ki, muxtar respublikada istedadlı və bilikli gənclər yetişir. Hər il yüzlərlə məzun ali məktəblərə qəbul olur, yüksək nəticə göstərirlər. Müəllim əməyinə də yüksək qiymət verilir. Gənc müəllimlərin işlə təminatı üçün əlverişli şərait yaradılır. Müəllimlərin əməkhaqqı dəfələrlə artırılır. Fərqlənən müəllimlər dövlət mükafatları ilə təltif olunurlar. Sevinirik ki, təhsilə, elmə yüksək dəyər verildiyi, müəllim adının yüksək tutulduğu Naxçıvanda yaşayır və çalışırıq. Qarşıdan gələn yubileyiniz münasibətilə Sizi təbrik edir, doğma Naxçıvanımızın işıqlı gələcəyi naminə fəaliyyətinizdə möhkəm cansağlığı və uğurlar arzulayırıq”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vənənd kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Müstəqil dövlətdə yaşayan hər bir gənc birinci növbədə yaxşı təhsil almalı, vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunmalıdır”***, fikrini xatırladaraq demişdir: Vənənd kənd tam orta məktəbində ümummilli liderimizin tövsiyələrini həyata keçirmək üçün hərtərəfli şərait yaradılıb. Görülən işlər tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Əvvəlki məktəbdə müasir tədris şəraiti yox idi. Lakin bu gün



məktəbdə elektron lövhələr, laboratoriyalar, kitabxana, elektron dərsliklər və lazım olan digər müasir tədris avadanlıqları pedaqoji kollektivin istifadəsinə verilir. Ona görə də müəllimlər öz üzərlərində işləməli, tədris müasir metodlar əsasında qurulmalıdır.

Ali Məclisin Sədri demişdir: Birləşmiş Millətlər Təşkilatı XXI əsri elm və təhsil əsri adlandırıb. Bu çağırışlara uyğun olaraq ölkəmizdə təhsilin inkişafına diqqət göstərilir. Azərbaycanda təhsil islahatlarının əsası ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə – ötən əsrin 70-ci illərində qoyulmuşdur. Həmin dövrdə Azərbaycanda yeni təhsil müəssisələri yaradılmış, hər il minə yaxın gənc Sovetlər Birliyinin ən yüksək ali məktəblərinə təhsil almağa göndərilmişdir. Ulu öndər müstəqillik illərində də Azərbaycanda təhsil işinə və müəllim əməyinə yüksək qiymət vermişdir. Bu gün də ölkə Prezidentinin Heydər Əliyev yoluna sədaqətinin nəticəsidir ki, Azərbaycanda sabitlik, inkişaf və tərəqqi vardır. Təhsilin müasir tələblər səviyyəsində qurulması və gənclərin hərtərəfli təhsil almaları üçün lazımi tədbirlər görülür. Dünyada elə ölkələr var ki, orada təhsilin inkişafından danışmaq mümkün deyil. İnsanlar ancaq yaşamaq uğrunda mübarizə aparırlar, gənclər təhsildən kənarda qalıblar. Lakin Azərbaycan savadlılıq səviyyəsinə görə dünya ölkələri sırasında 100 faiz nəticəyə malik olan ölkələrdəndir. Bütün bunlar da ölkəmizin inkişafına xidmət edir.

“Bu gün dünyada qəbul olunmuş “elmdən istehsalata” təcrübəsi Azərbaycanda uğurla tətbiq olunur. Gənclər təhsilin bütün pillələri üzrə hərtərəfli təhsil almaq imkanlarına malikdirlər. Muxtar respublikada da bu sahədə görülən işlər təhsilin inkişafını təmin etmişdir. Artıq Naxçıvan Muxtar Respublikasında təhsilin inkişaf göstəriciləri ümumi Azərbaycan üzrə orta səviyyədən yüksəkdir”, – deyən Ali Məclisin Sədri Vənənd kənd tam orta məktəbi kollektivinin timsalında muxtar respublikanın bütün müəllim və təhsil işçilərinə təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, Vənənd kənd tam orta məktəbinin yaxşı təhsil ənənələri vardır. Son 5 ilin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə tədris nümunəvi təşkil olunmuş, məzunların 53 faizi ali məktəblərə qəbulda uğurlu nəticə göstərmiş, 500-700 intervalında yüksək bal toplamışlar. Həmçinin məktəbin şagirdləri Heydər Əliyev adına Hərbi Liseydə və ali hərbi məktəblərdə təhsillərini davam etdirirlər. Qazanılan nailiyyətlərin nəticəsidir ki, məktəbin müəllimlərindən 2-si “Azərbaycan Respublikasının Əməkdar müəllim”i fəxri adına layiq görülmüşdür.

Ali Məclisin Sədri demişdir: Orta təhsilini başa vuran hər bir gənc peşə sahibi olmalı, cəmiyyət və ölkə üçün yararlı vətəndaşa çevrilməlidir. Ona görə də gənclər ümummilli liderimizin tövsiyələrini əsas götürərək ilk növbədə yaxşı təhsil almalı, vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunmalıdırlar. Bu gün muxtar respublikamızda təhsil sahəsində görülən işlər onu deməyə əsas verir ki, müəllimlərin səyi və tələbkarlığı, şagirdlərin çalışqanlığı nəticəsində hər bir gənc yaxşı təhsil alır, peşə öyrənir, eyni zamanda vətənpərvərlik ruhunda tərbiyə olunur.

Ali Məclisin Sədri kollektivi bir daha təbrik etmiş, tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.

## Vənənd kənd Uşaq Musiqi Məktəbinin açılışı olmuşdur





Muxtar respublikada gənc nəslin təhsili ilə yanaşı, onların istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili istiqamətində də ardıcıl tədbirlər görülür. Uşaq musiqi məktəbləri üçün yeni binaların tikilməsi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.



Yanvarın 13-də Vənənd kənd Uşaq Musiqi Məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 3 mərtəbəli məktəb binasında tədris üçün bütün imkanlar yaradılmışdır. Binada direktor və müəllimlər otaqları, musiqi ədəbiyyatı, solfecio, nağara, qarmon, saz, kamança, nəfəsli alətlər, tar, fortepiano, xanəndəlik sinfi olmaqla, 34 sinif otağı, 22 yerlik konsert zalı, musiqi ədəbiyyatı və oxunması zəruri olan kitablarla təmin edilmiş kitabxana, musiqi alətlərinin təmiri otağı və arxiv yerləşir.

Musiqi alətlərinin təmiri ustası-müəllim Vahid Məmmədov yaradılan şəraitin fəaliyyət üçün geniş imkanlar açdığını bildirmiş, daha səylə çalışacaqlarına söz vermişdir.

Məktəbdə Xalq Çalğı Alətləri və Nəfəsli Alətlər orkestrləri, Sazçalanlar və Nağaraçalanlar ansambları, eləcə də Xor kollektivi fəaliyyət göstərir, fortepiano, tar, kamança, nağara, saz, qarmon, klarnet və xanəndəlik ixtisasları tədris olunur.

Ali Məclisin Sədri musiqi məktəbinin müəllimləri ilə görüşmüşdür.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, muxtar respublikada mədəniyyətin, xüsusilə musiqi sənətinin inkişafı əsas vəzifələr sırasındadır. Uşaq musiqi və bədii sənətkarlıq məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verilir, gənc nəslə milli musiqi sənətimizin öyrədilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yaradılan şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri ölkəmizdə, eləcə də beynəlxalq miqyasda keçirilən müsabiqələrdə uğurla iştirak edirlər. Ordubad rayonunun Vənənd kəndində musiqi məktəbi üçün yeni binanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Natəvan Qədimova muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından



Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məktəbin müəllimi Leyla Yaqubova demişdir: “Kəndimizdəki musiqi məktəbi Sovet dönəmindən qalmış köhnə və heç bir şəraiti olmayan binada yerləşirdi. Lakin Ali Məclis Sədrinin qayğısı ilə Vənənd kəndində aparılan geniş quruculuq işləri musiqi məktəbini də əhatə etmişdir. Bu gün müasir tələblər səviyyəsində, yüksək standartlara cavab verən musiqi məktəbi kollektivin istifadəsinə verilir. Çalışacağıq ki, yaradılan şəraitin müqabilində daha əzmlə fəaliyyət göstərək, musiqi sənətinin sirlərini gənc nəslə öyrədək. Yaradılan şəraitə və göstərilən qayğıya görə kollektiv adından minnətdarlığımızı bildirir, qarşıdan gələn doğum gününüz münasibətilə təbrik edir və dövlətçilik fəaliyyətinizdə daha böyük uğurlar arzulayırıq”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov musiqi məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Naxçıvan Muxtar Respublikasında 26 uşaq musiqi məktəbi fəaliyyət göstərir. Onlardan 2-si Ordubad rayonunda – Ordubad şəhərində və Vənənd kəndində yerləşir. Bu gün muxtar respublikada

*Ardı 3-cü səhifədə*

musiqi təhsilinin bütün pillələri üzrə hərtərəfli şərait yaradılmışdır. Uşaq musiqi məktəbləri ilə yanaşı, Naxçıvan Musiqi Kolleci, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və konservatoriyası fəaliyyət göstərir. Ona görə də musiqi məktəblərinin üzərinə mühüm vəzifə düşür. Uşaq musiqi məktəblərində təhsil alan gənclərə gələcəkdə musiqi təhsillərini davam etdirmələri üçün seçdiyi ixtisaslar dərindən öyrədilməlidir. Bu gün musiqi məktəblərində ixtisaslı müəllimlər dərs deyir. Bunlar da imkan verir ki, musiqi təhsili gənclərə yaxşı öyrədilsin. Çünki musiqi məktəblərində təhsilin düzgün təşkili ölkənin mədəniyyətinin inkişafına da böyük töhfədir. Milli musiqimiz, xalq və bəstəkar mahnıları, dünya musiqisi gənc nəslə musiqi məktəblərində öyrədilir.

Ali Məclisin Sədri demişdir: Azərbaycan milli musiqisinin və mədəniyyətinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyi dövründə musiqi mədəniyyətimizin inkişafını diqqətdə saxlamış, yeni əsərlər yazılmışdır. Ölkəmizdə ümummilli liderin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün də musiqi sənətinin inkişafı sahəsində nailiyyətlər vardır. Vaxtilə Azərbaycan gəncləri yalnız Sovetlər Birliyindəki məktəblərdə təhsil ala bilirdilərsə, bu gün müstəqil Azərbaycanın gəncləri dünya konservatoriyalarında tanınmış musiqiçilərdən dərs alırlar.

Qeyd olunmuşdur ki, peşəkar musiqiçilərin yetişməsində ilkin musiqi təhsili mühüm əhəmiyyət daşıyır. Ona görə də musiqi məktəblərində gənclərə yaxşı təhsil verilməli, milli musiqinin sirləri dərindən öyrədilməlidir. Vənənd kənd Uşaq Musiqi Məktəbində bu vəzifələrin icrası üçün lazımi şərait yaradılıb. Burada 8 ixtisas üzrə 119 şagird təhsil alır. 34 nəfərdən ibarət pedaqoji kollektiv şagirdlərə musiqi təhsili verir. Ona görə də təhsilin səviyyəsi daim yüksək olmalı, musiqiyə marağı olan şagirdlər məktəbə cəlb edilməlidir.

Ali Məclisin Sədri məktəbin nailiyyətlərinə görə kollektivə təşəkkürünü bildirmiş, onlara təhsildə uğurlar arzulamışdır.

Konsert zalında məktəbin şagirdləri musiqi nömrələri təqdim etmişlər.

## Kənddə tibbi xidmətin səviyyəsi yüksəlmişdir





Yanvarın 13-də Vənənd kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, ambulatoriyada səhiyyə xidmətinin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ambulatoriya 11 otaqdan – baş həkim, stomatoloq üçün kabinə, palata, tibb bacısı, fizioterapiya, doğuş, manipulyasiya, peyvənd, qeydiyyat, aptek və texniki otaqdan ibarətdir. Ambulatoriyaya stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, hemometr, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar verilmişdir. Fizioterapiya kabinəsi isə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksəktezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı və solyuks lampası ilə təmin olunmuşdur.

Həkim ambulatoriyasında qeydiyyat elektron formada aparılır. Burada quraşdırılan kompüter səhiyyə informasiya idarəetmə sisteminə qoşulmuşdur.

Ötən il Vənənd kəndində 26 uşaq doğulmuşdur. Hazırda hamilə qadınlara mütəmadi patronaj xidmət göstərilir. Eyni zamanda peyvənd işi də diqqətdə saxlanılır, uşaqlar vaxtlı-vaxtında peyvənd olunur.

Tibb bacısı Arifə Rzayeva yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri kənddə səhiyyə xidmətinin təşkilinin vacibliyini qeyd etmiş, tapşırıq və tövsiyələrini vermişdir.



## Vənənddə dövlət qurumları müasir kənd mərkəzində fəaliyyət göstərəcək





Yanvarın 13-də Vənənddə yeni kənd mərkəzinin də açılışı olmuşdur.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, o cümlədən Yeni Azərbaycan Partiyası Vənənd kənd ərazi ilk təşkilatı, arxiv və 58 yerlik zal yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılmış və lazımi inventarlarla təchiz edilmişdir. Kənd kitabxanasında 11 min 705 kitab vardır.

Yeni Azərbaycan Partiyası Vənənd kənd ərazi ilk təşkilatının sədri Məryəm Zeynalova demişdir ki, kənddə aparılan quruculuq işləri sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. Bu tədbirlər Yeni Azərbaycan Partiyası tərəfindən həyata keçirilib. Sakinlər partiya sıralarına daxil olmaq üçün müraciət edirlər. Hazırda ərazi ilk təşkilatının 366 üzvündən 121-i gənc, 219-u isə qadındır.

Rabitə evində poçt bölməsinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, 568 yerlik yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 228 internet istifadəçisi vardır.



Ardı 4-cü səhifədə

# Xanağa-Ağrı-Dizə-Vənənd kənd avtomobil yolu yenidən qurulmuşdur






Yanvarın 13-də Ordubad rayonunun Xanağa-Ağrı-Dizə-Vənənd kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, Vənənd kəndində kompleks tikinti işləri aparılarkən 10,7 kilometrlik yol da yenidən qurulmuşdur. Tikinti işləri zamanı bütün mühəndis-texniki tələblərə əməl edilmiş, yol yatağı genişləndirilərək asfalt örtük salınmış, 186 su keçidi qoyulmuş, 2800 metrlik beton kanal çəkilmişdir. Həmçinin 900 metr uzunluğundakı kənddaxili yollar da təmir olunaraq qum-çınqıl qatı verilmişdir.

# Xidmət mərkəzində 9 sakin işlə təmin olunmuşdur





Vənənd kəndində xidmət mərkəzi də istifadəyə verilmişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, mərkəzin fəaliyyəti ilə maraqlanmışdır. Bildirilmişdir ki, xidmət mərkəzində gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 3 anbar yerləşir. Mərkəzdə 9 nəfər işlə təmin olunmuşdur.




Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri Vənənd kəndinin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: Bu gün ölkəmizin ümumi inkişafının tərkib hissəsi kimi muxtar respublikamızda da quruculuq işləri aparılır, kəndlər abadlaşır, yollar çəkilir, yeni məktəblər tikilir, su-kanalizasiya sistemləri qurulur. İnsanların rahat yaşaması, təsərrüfatların inkişafı, əhalinin məskunlaşması üçün dövlət tərəfindən lazımi tədbirlər görülür. Həyata keçirilən tədbirlər Vənənd kəndinin timsalında aydın görünür. Bu gün Azərbaycanda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sabitlik, inkişaf və dövlət-xalq birliyi mövcuddur. Ölkə Prezidenti tərəfindən həyata keçirilən tədbirlərin nəticəsidir ki, sabitlik və inkişaf Azərbaycanın həyat tərzinə çevrilib. Muxtar respublikada da inkişaf təmin olunmuşdur. Bu gün Vənənd kənd xidmət mərkəzində satılan məhsulların 90 faizi yerli istehsaldır. Muxtar respublikamızda 2019-cu ildə elan olunmuş “Ailə təsərrüfatları ili”nə Vənənd kəndi xüsusi töhfə vermiş, təsərrüfatlar inkişaf etmişdir.



Ali Məclisin Sədri bütün bunlara görə kənd sakinlərinə təşəkkürünü bildirərək demişdir: Vənənd muxtar respublikamızın böyük kəndlərindəndir. Kənddə aparılan quruculuq işləri həcminə görə bir rayonda görülən işlərə bərabərdir. Artıq kənddə bütün sahələr üzrə müasir iş şəraiti yaradılıb. Yaxşı iş şəraiti olan yerdə isə yüksək əhval-ruhiyyə, dövlətə və sabaha inam olur. Bir sözlə, Vənənd müasir Azərbaycan kəndinin nümunəsidir. Ona görə də yaradılanlar qorunmalı və onlardan səmərəli istifadə olunmalıdır.



Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkürünü bildirmiş, sakinlərə yeni ildə rahat və firavan həyat arzulamışdır.

Kənd ağsaqqalı Cəmil Məmmədov sakinlər adından minnətdarlıq edərək demişdir: Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Vənənd kəndində görülən işlər Ali Məclis Sədrinin qayğısı nəticəsində həyata keçirilmişdir. Bu gün gözəl şəraiti olan məktəb binası, musiqi məktəbi müəllim və şagirdlərin istifadəsinə verilir. Kənd və xidmət mərkəzləri sakinlərin gündəlik qayğısına hesablanıb. Kənd yolları yenidən qurulmuş, asfalt örtük salınmışdır. Kəndin rabitə xətləri yenilənmişdir. Tarixboyu Vənənd kəndində bu cür şərait olmamışdır. Quruculuq işlərindən sonra Vənənd kəndi qəsəbə görkəmi almışdır. Kəndin bugünkü siması, yaradılan şərait vaxtilə buradan köçüb gedənlərin qayıtmasına səbəb olmuşdur. Kənddəki ailə təsərrüfatları

Ardı 5-ci səhifədə

genişləndirilmiş, istehsal olunan məhsulların satışına şərait yaradılmışdır. Bütün bunlar dövlətin öz vətəndaşlarına göstərdiyi qayğının nəticəsidir.

Cəmil Məmmədov sakinlər adından Ali Məclisin Sədrini qarşıdan gələn 60 illik yubileyi münasibətilə təbrik etmişdir.

* * *

Kənddə quruculuq işləri aparılarkən 800 metr fiber-optik, 530 metr yeraltı, 1920 metr hava rabitə xətti çəkilmiş, 55 yeni elektrik dayağı basdırılmış, 8100 metr elektrik xətti çəkilmiş, 4 transformator yarımstansiyası yenidən qurulmuşdur. Həmçinin 700 metr polietilen borularla qaz xətti çəkilmiş, 7210 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Vənənddə içməli su təminatı da yaxşılaşdırılmış, 2088 metr uzunluğunda plastik borularla içməli su xətti çəkilmiş, 180 çıxışı olan 15 supaylayıcı qoyulmuşdur.

## Dəstə Radio-Televiziya Verici Stansiyasının yeni binası istifadəyə verilmişdir





Yanvarın 13-də Dəstə Radio-Televiziya Verici Stansiyasının yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət bina 8 otaqdan ibarətdir. Birinci mərtəbədə transmissiya, generator və elektrik otaqları, ikinci mərtəbədə isə 2 baza stansiyası, nəzarətçi və teleradio vericiləri otaqları yerləşir. Transmissiya otağında fiber-optik sonlandırma avadanlıqları, paylayıcı və çevirici qurğular, baza stansiyalarında 2 rəqəmsal televiziya və 3 radio vericisi, mobil operatorların baza stansiyaları və köməkçi avadanlıqları, nəzarətçi otağında isə efirə nəzarət üçün 2 monitor quraşdırılmışdır.

150 metrlik qüllədə mobil rabitə baza stansiyalarının, televiziya və radio vericilərinin şüalandırıcıları, anten-fider sistemləri qurulmuş, radiorele avadanlıqlarının qəbuledici-verici çanaq antenləri montaj olunmuşdur. Yaradılan şərait ərazidə teleradio



yayımlarının kəsintisiz həyata keçirilməsinə imkan verəcəkdir.

Sonra kollektivlə görüş olmuşdur.

Ali Məclisin Sədri yeni stansiyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün istifadəyə verilən stansiya Ordubad rayonu ərazisində 12 televiziya və 10 radio yayımını təmin edir. Əvvəlki avadanlıqların yararsız vəziyyətdə olması müəyyən çətinliklər yaradırdı. Lakin stansiyada quraşdırılan müasir avadanlıqlar çətinlikləri azaltmışdır. Ona görə də avadanlıqlar öyrənilməli və onlardan düzgün istifadə edilməlidir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikamızda bu sahənin inkişafı da diqqətdə saxlanılmış, 2018-ci ildə İbadulla Radio-Televiziya Verici Stansiyası yenidən qurulmuşdur. Bu gün isə Dəstə Radio-Televiziya Verici Stansiyası istifadəyə verilir. Avadanlıqları yaxşı öyrənmək, onlara düzgün xidmət göstərmək kollektivin qarşısında duran əsas vəzifədir. Bəzi ölkələrdə analoq yayımdan rəqəmsal yayıma keçidə yenicə başlanıb. Lakin muxtar respublikada bir neçə il bundan əvvəl tam rəqəmsal yayıma keçilmişdir. Kollektiv avadanlıqlara yaxşı xidmət göstərməli, onları qorumalıdır.

Stansiyanın mühəndisi Qüdrət Fərzəndov çıxış edərək demişdir: Dəstə Radio-Televiziya Verici Stansiyası 1981-ci ildən fəaliyyət göstərir. 39 ildir, burada çalışıram. Lakin heç vaxt bugünkü kimi müasir iş şəraitimiz olmayıb. Ötən il Ali Məclis Sədrinin Sərəncamına uyğun olaraq əməkhaqlarımız artırılıb. Bu gün isə müasir stansiya istifadəyə verilir. Qüdrət Fərzəndov yaradılan şəraitə görə kollektiv adından minnətdarlığını bildirmişdir.

Ali Məclisin Sədri muxtar respublikada digər radio-televiziya verici stansiyaların da yenidən qurulması ilə bağlı tapşırıqlar vermişdir.

## Darkənd Su Dəyirmanı yenidən qurulub





Naxçıvanda tarixən su dəyirmanlarından geniş istifadə olunub. Ruzi-bərəkət rəmzi kimi məişət mədəniyyətimizin ayrılmaz parçası olan su dəyirmanları həm də taxılçılığın inkişafının təzahürüdür. Taxılın su dəyirmanlarında üyüdülməsi ilə bağlı yaranan adət-ənənələr onun əhəmiyyətini bu günədək qoruyub saxlamışdır. Hazırda muxtar respublikada su dəyirmanlarının yenidən bərpa olunması tarixi mirasımıza, adət-ənənələrimizə göstərilən diqqətin davamı olmaqla yanaşı, həm də insanların sağlam həyat tərzinə hesablanıb.

Yanvarın 13-də Ordubad rayonunun Darkəndində su dəyirmanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd sakinləri ilə görüşmüş, onları təbrik edərək demişdir: Vaxtilə su dəyirmanından bu ərazidə yaşayan insanlar istifadə etmişdir. Ötən əsrin 90-cı illərinin acı nəticələri bu cür abidələrimizə də təsir etmiş, su dəyirmanlarının fəaliyyəti dayanmışdır. Lakin bir neçə ildir ki, muxtar



respublikamızda su dəyirmanlarının bərpasına başlanılıb. Bu gün isə Darkənd Su Dəyirmanı yenidənqurmadan sonra istifadəyə verilir. Muxtar respublikamızın bütün ərazisində müasir dəyirmanlar fəaliyyət göstərir. Lakin su dəyirmanlarında istehsal olunan una ehtiyacı olan insanlar var. Ona görə də su dəyirmanlarının bərpası diqqətdə saxlanılır.

Kənd sakini Qədim Sultanov demişdir: Ordubad rayonunun Azadkənd, Darkənd və Aza kəndlərində taxılçılıq inkişaf edir. Əvvəllər çox çətinliklər yaranırdı. Taxılı qonşu kəndlərə apararaq üyüdürdük. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində su dəyirmanının yenidən qurulması bu çətinliyi də aradan qaldırdı. Qədim Sultanov sakinlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra açılışı bildirən lent kəsilmişdir. Məlumat verilmişdir ki, bu dəyirman muxtar respublikada bərpa olunan beşinci su dəyirmanıdır. Sahəsi 69 kvadratmetr olan Darkənd Su Dəyirmanının gündəlik istehsal gücü 1 tondur. Dəyirmana 157 metr məsafədən su kanalı çəkilmiş, ətrafı abadlaşdırılmış, kənddaxili 500 metr yol təmir olunaraq qumçınqıl qatı verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Davamlı və dinamik inkişaf edən NAXÇIVAN



*Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan öz tarixinin çətin günlərini yaşayırdı. İşğalçı ermənilər tərəfindən blokadaya alınmış Naxçıvan daha ağır vəziyyətdə idi. Yollar bağlanmış, əlaqələr kəsilmiş, insanların yaşaması üçün vacib olan zəruri vasitələr problemə çevrilmişdi. Məhz belə bir zamanda dünya şöhrətli siyasətçi, qüdrətli dövlət xadimi Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdı. 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir. Qarşıya qoyulan bütün məsələlər ulu öndər Heydər Əliyev uzaqgörənliyi, cəsarət və qətiyyəti sayəsində həll edildi, Naxçıvan qorundu, onun düşmən əlinə keçməsinə imkan verilmədi.*

Ulu öndərin quruculuq xəttinin davamı sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin etdi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan hərtərəfli inkişafa qovuşdu. Ötən dövrdə ulu öndərin siyasi kursunun uğurla davam etdirilməsi, əzmkarlıq, siyasi iradə və ən əsası yüksək vətənpərvərlik nümunəsi blokada şəraitində də hərtərəfli inkişafın mümkünlüyünü göstərdi. Daxili imkanlardan səmərəli istifadə olundu, həyata keçirilən sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirildi, iqtisadiyyatda müsbət meyillər daha da möhkəmləndirildi.

Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası mühüm əhəmiyyət kəsb etmişdir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir. İqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 2018-ci ildə 2 milyard 773 milyon manat olmaqla, 2003-cü ildəki müvafiq göstəricini 16,5 dəfə üstələmişdir.

İqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, ümumi daxili məhsulun həcmi dəfələrlə artmışdır. Muxtar respublika iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. 2003-cü illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 56,3, əsas kapitala yönəldilən vəsaitlər 16,1, kənd təsərrüfatının ümumi məhsulu 6,7, nəqliyyat sektorunda yük daşınması 2,8, informasiya və rabitə xidmətləri 11,8, pərakəndə əmtəə dövriyyəsi 17, əhaliyə göstərilən ödənişli xidmətlər 17,2, ixrac 101,8, əhalinin gəlirləri 11, hər bir nəfərə düşən gəlirlər 9, orta aylıq əməkhaqqı isə 11,3 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi təmin edilmişdir. Ötən dövrdə Babək rayonunda 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, Ordubad rayonunda 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" Su Elektrik Stansiyası, 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyası, Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Su Elektrik Stansiyası tikilmiş, 60 meqavat gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası yenidən qurulmuşdur. 2017-ci ildə Naxçıvan Günəş Elektrik Stansiyasının gücü 2 meqavat artırılaraq 22 meqavata çatdırılmışdır. Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası tikilmişdir. Hazırda Ordubad rayonunda gücü 36 meqavat olan Su Elektrik Stansiyasının və Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir. Bu gün Azərbaycan Respublikası üzrə Günəş Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin 78 faizdən çoxu muxtar respublikanın payına düşür. Eyni zamanda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş ölkələr üçün çox nadir göstərici hesab edilir.

Muxtar respublikanın təbii qazla təmin edilməsi sahəsində də böyük uğurlar qazanılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində 2005-ci ildə İrandan mübadilə yolu ilə muxtar respublikaya təbii qazın verilməsinə başlanılmış, qısa müddət ərzində Naxçıvan tamamilə qazlaşdırılmışdır.

Ölkəmizdə yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır. Yaranmış şəraitdən düzgün istifadə edilmiş, çoxsaylı inzibati binalar, sosial obyektlər tikilmiş, yüksək səviyyədə quruculuq və abadlıq işləri görülmüşdür. 2004-2018-ci illər ərzində muxtar respublikada 294 inzibati bina, 52 nasos stansiyası, 162 subartezian quyusu, 72 körpü, 160 elm və təhsil müəssisəsi, o cümlədən 34 min 204 şagird yerlik 111 ümumi təhsil məktəbi, 260 mədəniyyət obyekti, 194 səhiyyə müəssisəsi, 21 idman obyekti, sağlamlıq imkanları məhdud, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 300 fərdi ev, 859 istehsal və xidmət obyekti tikilmişdir.

Muxtar respublika iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyini qorumuş, əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin isə xammala olan tələbatının ödənilməsindəki rolu, həmçinin əhali məşğulluğunun təmin olunmasındakı əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafı diqqət mərkəzində saxlanılmışdır. Aqrar sektorun inkişafı istiqamətində istehsalçılara dövlət maliyyə yardımlarının göstərilməsi, meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi, gübrələrin güzəştlə çatdırılması, səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılması, lizinqin inkişafının dəstəklənməsi, yeni satış bazarlarının təşviqi, yeni emal müəssisələrinin yaradılması kənd təsərrüfatı sahəsində iqtisadi aktivliyi əhəmiyyətli dərəcədə artırmışdır.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq yerli istehsalın əhatə dairəsi genişləndirilmiş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. Muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, ixrac potensialı getdikcə artır. Bir sözlə, enerji təhlükəsizliyi kimi, ərzaq təhlükəsizliyi də təmin edilmişdir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində nəqliyyat və rabitə sahələrinin də xüsusi yeri vardır. Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq son 15 ildə muxtar respublikada 2027,2 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuşdur. Bununla yanaşı, 116 körpü tikilmiş və ya yenidən qurulmuşdur. Bu sahədə infrastrukturun yenilənməsi istiqamətində böyük layihə kimi Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi başa çatmaq üzrədir. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 99,1 faizində genişzolaqlı internet, 99,5 faizində isə simsiz internet xidmətləri göstərilir. Mövcud telekommunikasiya şəbəkəsinin 98 faizi optik şəbəkəyə birləşdirilmişdir. Muxtar respublikada informasiya və rabitə sahəsində daha bir yenilik kimi 2016-cı ildə "Naxtel" dördüncü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmiş, "Evədək optika", "Elektron hökumət", "Elektron imza"nın tətbiqinə başlanılmışdır.

Muxtar respublikada ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Hazırda muxtar respublikanın ümumi ərazisinin 20 faizə yaxınını yaşıllıqlar əhatə edir. 1990-cı ildə isə bu göstərici 0,6 faiz həddində olmuşdur. Muxtar respublikanın 27 faizə qədər təbiət ərazisi xüsusi mühafizə olunan ərazidir.

Hər bir cəmiyyətin ən qiymətli sərvəti onun sağlam üzvləridir. Naxçıvanda həyata keçirilən səhiyyə islahatlarının mərkəzində də insan amili dayanır. Son illər burada 200-ə yaxın tibb müəssisəsi istifadəyə verilmiş, onlar ən müasir tibbi avadanlıqlarla təmin olunmuşdur. İcbari tibbi sığortanın tətbiqinə başlanmışdır.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, ***"Təhsil millətin gələcəyidir"***. Ölkə Prezidenti cənab İlham Əliyev isə təhsilə ***"Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə"*** kimi yüksək dəyər vermişdir. Ötən dövrdə muxtar respublikada müasir informasiya texnologiyaları ilə təmin olunmuş yeni məktəb binaları istifadəyə verilmiş, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilmiş, 2 universitet şəhərciyi salınmış, peşə məktəbləri yaradılmışdır. Tədrisdə yeni texnologiyalar tətbiq olunmuş, 600-dən artıq elektron lövhə quraşdırılmış siniflər, internetə çıxışı olan 7 minə yaxın kompüter, müasir laboratoriyalar və zəngin fonda malik kitabxanalar şagird və tələbələrin istifadəsinə verilmişdir.

Ulu öndərimizin ölkəmizdə elmin inkişafı sahəsində qəbul etdiyi mühüm qərarlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması barədə 2002-ci il 7 avqust tarixli Sərəncamdır. Ümummilli liderin müdrik qərarından sonra muxtar respublikada elm yeni inkişaf mərhələsinə yüksəlmiş, elmi tədqiqatların səmərəliliyi xeyli artırılmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub.

Muxtar respublikada Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, 3 ali təhsil müəssisəsinin fəaliyyət göstərməsi, internet resurslarının və elmi kitabxanaların formalaşdırılması, təhsil və elm müəssisələri arasında interaktiv əlaqələrin qurulması, nümunəvi dərslərin keçilməsi və müasir nəşriyyatların istifadəyə verilməsi elmin inkişafı üçün geniş imkanlar açmışdır. Ötən dövrdə muxtar respublikada elmi tədqiqatların nəticəsi olan mühüm kitab və ensiklopediyalar çap olunmuş, beynəlxalq konfrans və simpoziumlar keçirilmiş, ekspedisiyalar təşkil edilmişdir. Elmə qayğı alim və tədqiqatçıların yetişməsi üçün də geniş imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması da elmin inkişafı və mövcud potensialdan daha səmərəli istifadə sahəsində mühüm vəzifələr müəyyənləşdirir.

Naxçıvan Muxtar Respublikası tarix və mədəniyyət abidələri ilə zəngin bir diyardır. Son illər muxtar respublika ərazisindəki 1213 tarix və mədəniyyət abidəsi qeydə alınmış və pasportlaşdırılmış, 70-dən çox tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur.

Muxtar respublikada son illərdə daha çox diqqət yetirilən sahələrdən biri də turizmdir. Burada turizmin bir sıra sahələri – dağ-xizək turizmi, dini-ziyarət turizmi, mədəni turizm, müalicəvi turizm, kənd turizmi üçün geniş imkanlar vardır. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması turistlərin marağını xeyli artırmışdır. Görülən işlərin nəticəsidir ki, hər il orta hesabla muxtar respublikaya 400 mindən artıq turist gəlir.

Naxçıvan Muxtar Respublikasının müdafiəsi və təhlükəsizliyinə daim diqqət göstərilmişdir. Əlahiddə Ümumqoşun Ordunun yaradılması, onun müasir silah-sursat və hərbi texnika ilə təminatı müdafiə təhlükəsizliyini təmin etmişdir. 2018-ci ildə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Günnüt kəndini işğaldan azad etməsi Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsindəki uğurlarımıza əyani sübutdur.

Muxtar respublikada görülən bütün işlərin mərkəzində insan amili dayanır. İnsanların rahat yaşayışı, məşğulluğunun təmin olunması qarşıda duran əsas vəzifələrdir. Bu sahədə dövlət proqramı icra olunur, gənc ailələrin sosial müdafiəsi gücləndirilir, sahibkarlığa diqqət artırılır, fiziki imkanları məhdud insanların sosial layihələr çərçivəsində məşğulluğu təmin edilir.

Naxçıvan Muxtar Respublikasında görülən işləri, həyata keçirilən tədbirləri, əldə edilən uğurları aşağıda qeyd olunan bu fakt da bir daha təsdiq edir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club" ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası 2017 və 2018-ci illərdə 18 parametr üzrə ən yüksək bal toplayaraq lider olmuşdur.

*Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çox böyük uğurlar əldə etmiş, lider dövlətə çevrilmişdir. Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da tarixin heç bir mərhələsində bugünkü qədər gözəl, abad və güclü olmamışdır. Dövlət başçısının dediyi kimi:* ***"Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 30